AzərEnerji

# *“Azərenerji” ASC-nin “Ekoloji Siyasəti”*

Elektrik və istilik enerjisinin istehsalı və ötürülməsi ilə məşğul olan “Azərenerji” ASC regionda öz fəaliyyəti sahəsində ən iri təşkilatdır.

“Azərenerji” ASC-nin “Ekoloji Siyasəti” Azərbaycan Respublikası Konstitusiyasına, qanunlarına, Azərbaycan Respublikası Prezidentinin Fərmanlarına, Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarına, həmçinin ətraf mühitin qorunması və təbii ehtiyatlardan səmərəli istifadəsi sahəsində Azərbaycan Respublikasının tərəfdaş olduğu beynəlxalq müqavilələrə əsaslanır.

“Azərenerji” ASC-nin “Ekoloji Siyasəti” – “ISO 14001:2015 Ətraf mühiti idarəetmə sistemləri – Tələblər və tətbiq üzrə rəhbərlik” Beynəlxalq Standartına uyğun olaraq, ən müasir texnologiyaları tətbiq etməklə elektrik enerjisinin istehsalı və ötürülməsi sahəsində ekoloji aspektləri yaxşılaşdıraraq insan və ətraf mühitə mənfi təsirlərin qarşısının alınmasına yönəlmişdir.

“Ekoloji Siyasət” “Azərenerji” ASC-nin ətraf mühitin mühafizəsi və ekoloji təhlükəsizliyinin təmin edilməsi istiqamətində aşağıdakı əsas prinsipləri müəyyən edir:

- *Ekologiya və ətraf mühitin qorunması sahəsində Azərbaycan Respublikası tərəfindən qəbul edilmiş normativ sənədlər, beynəlxalq saziş və konvensiyalar əsasında müəyyənləşdirilmiş qaydaların və tələblərin icrası;*
- *Enerjinin istehsalı və ötürülməsi zamanı yarana biləcək ekoloji risklərin azaldılması üçün müvafiq tədbirlərin görülməsi;*
- *Bərpa olunan enerji mənbələri, o cümlədən kiçik su elektrik stansiyaları sahəsində tədqiqatların təşkili, aparılması və tətbiqi;*
- *“Azərenerji” ASC əməkdaşlarının müvafiq təlimlərə cəlb edilərək, onların öz iş fəaliyyəti çərçivəsində ətraf mühitin qorunması üçün fəal iştirakının təmin olunması;*
- *Ətraf mühitin mühafizəsinə dair Hökümət və icra strukturları, ictimai birliklər, mətbuat orqanları, elmi-tədqiqat institutları və təchizatçıların nümayəndələri ilə birgə zəruri fəaliyyətlərin aparılması;*
- *Səhmdar Cəmiyyətinin əsas fəaliyyət prinsipi kimi təbii resursların maksimal dərəcədə səmərəli istifadə edilməsi, davamlı dinamik inkişaf və gələcək nəsillər üçün əlverişli ətraf mühitin saxlanması;*
- *İstehsalat proseslərində ekoloji risk və imkanların təhlilinin və qiymətləndirilməsinin mütamadi olaraq təsdiq olunmuş qaydalara uyğun olaraq aparılması.*

“Azərenerji” ASC-nin rəhbərliyi “Ekoloji Siyasəti”-n işçi heyətin diqqətinə çatdırılması, bütün əməkdaşlar tərəfindən həyata keçirilməsi, onun tələblərinə əməl edilməsi və təkmilləşdirilməsini təmin edir.

**“Azərenerji” ASC-nin Prezidenti** **B.H.Rzayev**

**“____” __________ 2020-ci il**